KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# BU GÜN BALIQÇILIQ TƏSƏRRÜFATI UĞURLA İNKİŞAF EDİR

**Xəzər dənizinin zəngin təbii sərvətləri həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına böyük şərait yaratmışdır. Əvvəllər yerli sahibkarlığın geniş inkişaf etmiş sahələrindən biri də balıqçılıq idi ki, əsasən, peşələrə görə bölünmüşdü: torçular, ovçular, avarçılar, təmirçilər, daşıyıcılar, duzlayıcılar və s. Həmin əmək bölgüsünün öz sahibləri və icraçıları var idi. Bütün vətəgələr mükəmməl texnika ilə təchiz edilmişdi və onlar bütövlükdə iri şirkətlərin, səhmdar cəmiyyətlərin nəzarəti altında birləşdirilmişdi.**

Təsadüfi deyildir ki, Azərbaycanın daha iri sahibkarlıq fəaliyyətinə aid sindikat tipli 4 balıqçılıq firması dünya bazarına ixrac edilən və valyuta ilə satılan ağ balıq kürüsünün 45%-ni verirdi. Deməkolar ki, dövlət xəzinəsinə ildə orta hesabla 2 milyon manatdan çox vəsait təkcə balıqçılıq sənayesindən daxil olurdu. Balıqçılıq sənayesinə aid məşhur şirkətlər Tağıyeva, Piralovlara, Zeynalovlara, Mailovlara və başqalarına məxsus idi. Azərbaycanın balıq sənayesi mənfəət baxımından neft və şərab istehsalından sonra 3-cü yeri tuturdu. Bir sözlə, balıqçılıq sahibkarlığın mənfəətli sahələrindəndir desək, heç də yanılmarıq, çünki balıq və balıq məhsullarına olan tələbat keçmişdən bəri əhalinin əsas qida növlərindən idi. Balqçılıq məhsullarının 75-80%-i əhalinin ətə olan tələbatının ödənilməsinə sərf edilir.

Bu gün də Azərbaycanın balıqçılıq təsərrüfatı uğurla inkişaf edir. Həmin inkişafda Caspian Fish şirkətinin də böyük payı var. Şirkət Azərbaycanda təkcə kürü və balıq məhsulları istehsalçısı və eksportyoru kimi deyil, həm də milli sərvətimizin qorunmasında önəmli rol oynayan şirkətlərdən biridir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət sayəsində Azərbaycan təkcə MDB ölkələri arasında deyil, bütün dünyada belə balıq və balıq məhsulları istehsal edən aparıcı ölkələrdən biridir. 2001-ci ilin fevral ayının 10-da yaranan Caspian Fish şirkəti də xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamışdır. Bu gün hazırladığı məhsulların yüksək keyfiyyətinə görə şirkət dünya şöhrəti qazanmışdır. Həm də Caspian Fish yüksək dünya standartlarına uyğun qurulmuş müəssisədir. Təsadüfi deyil ki, təkcə onun açılışı üçün müxtəlif tikinti materialları, avadanlıq və müasir texnologiyaların əldə edilməsinə 56 milyon dollar həcmində xarici investisiya cəlb edilmişdir. Caspian Fish şirkəti 96 çeşiddə balıq məhsulları, o cümlədən yüksək keyfiyyətli qara kürü istehsal edir. Qeyd edək ki, CITES və digər beynəlxalq təşkilatlar tərəfindən ciddi nəzarət altında olan kürü emalı və ixracı hüquqları Azərbaycanda yalnız Caspian Fish şirkətinə məxsusdur.




Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda balıq və kürü istehsalı sahəsində lider mövqeyini saxlayan, aparıcı kürü ixracatçısı olan Caspian Fish şirkəti əsasən 2 strateji istiqamətdə fəaliyyət göstərir: kürü və çeşidli balıq məhsullarının istehsalı və respublikamızın ekoloji strategiyası ilə sıx bağlı olan balıqların yetişdirilib artırılması, balıq populyasiyalarının çoxaldılması. Hal-hazırda Caspian Fish müəssisəsinin istehsal gücünü gündə 300 ton xammalın emalı təşkil edir. Burada 750 nəfəri dənizdə olmaqla, 1000-ə yaxın işçi çalışır. İstehsalat kompleksi balıq və kürü emalı, balıq unu və balıq yağı sexlərindən ibarətdir. Bir neçə növ balıqdan 80 adda məhsul istehsal edən özəl müəssisədir. Güclü potensiala malik müəssisə nəinki mövcud bölgələri təmin etməyə, digər çoxsaylı xarici ölkələrin də, o cümlədən Avropa, ABŞ və başqa dövlətlərin bazarına çıxmağa imkan verir. Caspian Fish şirkətinin ekoloji mühit, flora və faunanın qorunmasına, Xəzərdə balıq ehtiyatlarının artırılmasına yönəltdiyi fəaliyyət istiqaməti, əsasən, Mingəçevir Balıqartırma zavodu sayəsində həyata keçirilir.

Bütün postsovet məkanında analoqu olmayan həmin zavod, eyni zamanda, daxili balıq ehtiyatlarımıza xələl gətirmədən yüksək istehsalat potensialına malik Caspian Fish müəssisələrini lazımi həcmdə xammalla təmin edəcək.

Müəssisə süni balıqartırma sahəsində ən müasir texnoloji avadanlıqa təchiz olunmuşdur ki, bu da müxtəlif yetişdirmə şəraitində nərə cinsli balıqların təmir-törədici reproduktiv sürülərinin yaradılması, onların cinsi yetkinlik mərhələsinə qədər yetişdirilməsi və gələcəkdə törədici kimi istifadə olunmasına imkan yaradır.

Qeyd edək ki, 3 il ərzində Caspian Fish tərəfindən aparılan təcrübə işləri burada balıqların artması üçün optimal şəraitin yaradılmasına imkan verdi. Şirkətin tətbiq etdiyi iş metodları köklü şəkildə digər bölgələrdə istifadə olunan metodlardan fərqlənir. Başqa ölkələrdə balıq körpələri yalnız süni hövzələrdə yetişdirilir. Belə şəraitdə təbii işığın və körpələrin qidalanması üçün canlı biomassanın olmaması gələcəkdə əldə ediləcək balıq kürüsünün keyfiyyətinə təsir göstərir. Mingəçevirdə yaradılan təbii şərait, o cümlədən uğurlu inkişaf üçün tələb olunan normal su dövranı, suyun təmizliyi və oksigenlə zəngin olması, bioloji yemin mövcudluğu və s. amillər kürünün yüksək keyfiyyət parametrlərinə zəmanət verir.



Qeyd etmək lazımdır ki, Dövlət Baytarlıq Nəzarəti müfəttişlərinin "Caspian Fish Co.Azerbaijan" MMC-də apardıqları audit yoxlamaları nəticəsində müəssisənin istehsalat fəaliyyətinə çox yüksək qiymət, eyni zamanda, Rusiya və Avropa ölkələrinə ixrac kodu verilmişdir.

Onu da qeyd edək ki, 2007-ci ildə Xorvatiya Prezidenti Stepan Mesiç, Tacikistan Prezidenti Emoməli Rəhmon və 2008-ci ildə İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen ölkəmizə rəsmi səfərləri çərçivəsində "Caspian Fish Co. Azerbaijan" şirkətində olmuşdurlar. Onlar qida sənayesinin milli brendi olan Caspian Fish şirkətinin əhəmiyyətini xüsusi olaraq qeyd ediblər.

"Baku: into tomorrow's world" ("Bakı: sabahkı dünyada") verilişində Caspian Fish şirkətinin ətraf mühitin müdafiəsinə, ekoloji balansın saxlanılmasına və Xəzərin balıq sərvətlərinin artımına istiqamətlənmiş fəaliyyətindən danışılır.

Caspian Fish şirkəti 2011-ci ildə "UĞUR-2011" mükafatına layiq görülmüşdur. Bildiyiniz kimi, Consulting&Business jurnalı tərəfindən təsis olunmuş bu nüfuzlu mükafat biznes və iqtisadiyyat sahələrində önəmli nailiyyətlərə görə təqdim edilir. Həmin nüfuzlu mükafat Caspian Fish şirkətinə "Nərə cinsli balıqların qorunması və artırılması unikal layihəsinin icrasına görə" verilmişdir. Ölkəmizdə ekoloji balansın saxlanılması və Xəzərin balıq sərvətlərinin çoxaldılması Caspian Fish şirkətinin fəaliyyətinin ən mühüm istiqamətlərindəndir ki, əsasən, Mingəçevir Balıqartırma zavodu sayəsində inkişaf etdirilir. Öz missiyasını Xəzərdə balıq sərvətlərinin saxlanılması və artırılmasında görən Caspian Fish şirkətinin bu layihəsi dövlət miqyasında böyük əhəmiyyət kəsb edən ən önəmli layihələrdən biridir.

Beləliklə, ölkəmizin inkişafı üçün gəlir və şöhrət gətirən sahələrdən biri kimi Caspian Fish Co şirkəti də bu gün diqqət mərkəzindədir.

*Nailə CABBAROVA*